*Sumqayıt*

# Məktəbdə bayram şənliyi

Dünya Azərbaycanlılarının Həmrəylik Günü hər il Azərbaycanda böyük təntənə ilə qeyd edilir. Bu tarixi günün qeyd edilməsi ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı əvəzolunmaz xidmətlərindən biridir.

Respublikamızın hər bir bölgəsində olduğu kimi, Sumqayıt şəhərinin ümumtəhsil məktəblərində də Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı tədbirlər keçirilir.

Sumqayıt Şəhər Yusif Məmmədəliyev adına 31 saylı tam orta məktəbdə 1-ci sinfin şagirdlərinin iştirakı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Gününə və Yeni il bayramına həsr edilmiş tədbir keçirilmişdir. Tədbirdə Sumqayıt Şəhər Veteranlar Şurasının məsul katibi M.Zeynalov, məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Şəhla Qurbanova, məktəbin hərbi hazırlıq müəllimi Bəxtiyar Quliyev, sinif rəhbəri Arzu Umanova, valideynlərdən Xeybər Rəhimov, Samirə Qasımova, Aygün Nəbiyeva, Jalə İbrahimova, Sevda Cəfərova, Rəqsanə Əhmədova, Sima Xıdıyeva və başqaları iştirak etmişlər.

Məktəbdə yeni ilin rəmzi olan əsrarəngiz yolka al-əlvan oyuncaqlarla zövqlə bəzədilmişdir. Şaxta baba və Qar qız oynaq musiqi sədaları altında balaca fidanlarla və yeniyetmələrlə rəqs edir, onlara hədiyyə verir, şadlanırdılar.

Sonra uşaqlar vətənpərvərlik mövzusunda “Vətən”, “Türkün bayrağı enməz”, “Yeni il”, “Əsgər Marşı”, “Azərbaycan” şeirlərini söylədilər. “Qızlar və kuklalar” rəqsini oynadılar, oğlanlar isə əsgər marşını addımlamaqla ifa etdilər. Onlar bir-birindən maraqlı mahnılar ifa edib, şeirlər söylədilər. Beləcə, bayram şənliyi maraqlı nömrələrlə davam etdirildi.




Valideynlər və müəllimlər bu görüşü böyük razılıq hissi ilə qarşıladılar.

Onu da qeyd edək ki, Sumqayıtda fəaliyyət göstərən Yusif Məmmədəliyev adına 31 saylı tam orta məktəb ümumtəhsil məktəbləri arasında əldə etdiyi nailiyyətlərə görə şəhərin müasir və qabaqcıl təhsil ocaqlarından sayılır.

Direktor Xanım Əhmədovanın rəhbərlik etdiyi məktəb 2013-cü ilin ən nümunəvi məktəblərindən biri olmuşdur.

**Məşdi ZEYNALOV,**
**Sumqayıt şəhər Veteranlar Şurasının məsul katibi, qabaqcıl maarif xadimi.**